*Vaqif YUSİFLİ*



# Hisslərin fəsilləri, duyğuların rəsmləri və ya ruh şairi

Xanım İsmayılqızının «Adı olmayan fəsil» şeirlər və nəğmələr kitabını oxuyuram. Bu, onun altıncı kitabıdır. Demirəm ki, o, kitabdan-kitaba bir şair kimi artıq formalaşıb, poetik axtarışları daha səmərəlidir, təbii ki, istedadına şəkk etmədiyimiz hər hansı ŞAİR üçün bu proses vacibdir. Xanım İsmayılqızının şeirləri haqqında 2014-cü ildə yazdığım bir məqalədə qeyd etmişdim ki: «Xanım İsmayılqızının şeirləri onun şair səciyyəsini tam mənada açıqlayır və qətiyyətlə deyə bilərəm ki, çox az şair tapılar ki, onun şeirlərində şairin özü hərfbəhərf, sətirbəsətir, şeirbəşeir görünə bilsin… Azərbaycan şairləri arasında (xüsusən, son iyirmi ildə) eləsini tapmaq olmaz ki, ruhdan söz açmasın. Ruh həm şeirlərin içində, həm də ondan kənardadır, necə deyərlər, didərginlik həyatı yaşayır». Mən həmin yazını əsasən Ruh anlamının onun şeirlərində necə məna kəsb etməsini izləmişdim. Ancaq «Adı olmayan fəsil» şeirlər kitabında ruh anlamı daha geniş, daha mükəmməl şəkildə diqqəti cəlb edir.

Ruh nədir? Çox sadə bir şəkildə belə izah edə bilərik ki, ruh insanın psixi aləmi, onun hiss və duyğuları, əhval-ruhiyyəsidir, mənəvi qüvvəsi, mənəviyyatı, həvəs, ürəyi, qəlbidir. Akademik Məmməd Cəfər «Füzuli düşünür» monoqrafiyasında yazır: «Ruh və ya can dedikdə Füzuli birinci növbədə duyğu orqanlarını və sövq-təbii hisslər də daxil olmaqla diqqət, hafizə, xəyal kimi psixoloji xüsusiyyətləri nəzərdə tutur. Füzuliyə görə ruh zahiri və batini duyğulardan ibarət olub, iki qisimdir. Zahiri duyğu orqanları: görmə, eşitmə, dadbilmə, toxunma və qoxlama, daxili duyğu orqanları isə: müştərək duyğu, hiss, fəhm (düşüncə) duyğusu, xəyal, hafizə və fərqləndirmək duyğularından ibarətdir. «Cani-tən olduqca, məndən dərdü-qəm əskik deyil, Çıxsa can, xak olsa tən, nə can gərək, nə tən mana». Şair demək istəyir ki, yarının dərdi-qəmini çəkmək onun üçün xoşdur. Ruh və bədən olmayandan sonra bu dərdi-qəmi duymaq da mümkün olmayacaqdır. Belə olarsa, ruh və can onun nəyinə lazımdır». «Rühum! Ey şəhbazi-ülviyyət. Hümmətim tək fəzada pərvaz et!» (M.Ə.Sabir). Yüzlərlə belə misallar gətirmək olar və minlərlə ruhlar

dolaşır şeirlərimizdə. Ancaq söhbət Xanım İsmayılqızının şeirlərindən gedir. Və Xanım İsmayılqızı – XXI əsrin şairi Füzuli babasının ruh və bədən haqqında söylədiklərini özünəməxsus şəkildə belə ifadə edir:

***Ayaq – cismimi daşıyan,***
***Ürək – beynimə aşiyan,***
***Ömür – bir andı yaşayan***
***Ruhla bədən arasında.***

***Vətən – sənə arxa olan,***
***Övlad – nəfəsini alan,***
***Can – yolayrıcında qalan***
***Ruhla bədən arasında.***

***Bəşər – milyonların səsi,***
***Sevgi – varlığın zirvəsi,***
***Allah – qoruyan hər kəsi***
***Ruhla bədən arasında.***

Hisslər, duyğular, ürək, mənəvi aləm… Xanım İsmayılqızının bütün şeirləri bu poetik sözlərin «marşrutu» ilə hərəkət edir. İlk növbədə, bu hissləri, duyğuları, bu ürəyi yaşayan – daşıyan bir insanın mənəvi aləmi səni özünə cəlb edir:

***...Taleyimdəki ahları,***
***gözlənməyən sabahları***
***qəfil gələn günahları***
***səssiz dərən adamam.***

***Qurulanı yıxmasam da,***
***cızığımdan çıxmasam da,***
***gözlərinə baxmasam da,***
***səni görən adamam.***

***Mən adamam, boş deyiləm,***
***ruhum da var, daş deyiləm,***
***nə olsun ki, quş deyiləm,***
***qanad gərən adamam.***

Bu şeir Xanım İsmayılqızının sözlə çəkilmiş portretidir. Amma bu portretin görünüşü birmənalı deyil, o portretdə onlarla, gözə görünən və fəhmlə axtarıb tapa biləcəyin cizgilər var. Sözlər, ifadələr və onların qovuşaraq mənalara çevrilmələrini izləyirsən. Bəzən o sözlərin, ifadələrin, mənaların içində azırsan.

***Hisslərim oynadır məni,***
***Sözün içində batıram.***
***Bilmirəm hardan gəlirəm,***
***Bilmirəm hara çatıram.***
***…Şeir yazmaq istəmirəm…***



***Mən sözə dönmüşəm artıq.***
***...Adam deyiləm... Özümü***
***şeirə gömmüşəm artıq.***

Məsələ burasındadır ki, Xanım İsmayılqızının ruhsal aləmi bir çevrədə, deyək ki, müəyyən bir nöqtədə qərar tutmur. Ruh gəzintiləri bir ürəyin orbitindən dünyanın hər tərəfində görünə bilir. İlk növbədə, Vətən haqqında Ruhdan gələn çağırışlar, içində Vətən, Türkiyə, Qarabağ, Şuşa, Polad Həşimov kəlmələri səslənən şeirlər: Əruzda yazılmış «Vətən» rədifli şeirə boylandım:

***Hər odun, hər ocağın məşələ dönmək yeridir,***
***Həm adamdı, həm ağacdı, həm qaya, daşdı Vətən.***

Allaha müraciətlər (*«İlahi, Pərvərdigara, Bir azca da bəxtindən ver Bəxtini uduzanlara», «Tanrım, hər tərəfdə sənin yerindi, Durduğum yer deyil, yerdən dərindi, Hər duamın sonu – Allah kərimdi»*), Dünya ilə həsb-hal (*«Dünya, hər üzünü gördüm, bir maska ver taxım mən də… Başımı aldatma, dünya»*), "bilirəm"dən "bilmirəm"ə doğru tərəddüdlər (*«Bilirəm ki, bu dünyada mənim də bir köçüm var, Bilirəm ki, bu köçümü aparmağa işim var», Mən bilmirəm hara qədər gedib qayıtmalıyam, Mən bilmirəm yatanları necə ayıltmalıyam»*), payızla, küləklə, yağışla, yarpaqla, gecəylə, dərələrlə, təpələrlə bağlı təbiət etüdləri ("Nə gözəl ölür yarpaqlar", «Ya Rəbb, oddan keçənlərə bir az yağışı bol göndər» və sevgi ilə ruhun qovuşması:

***Sevəndə elə sevirəm ki,***
***heç nə gözümdə batmır,***
***ürəyimə düşür,***
***qanımdan keçir.***
***Sevəndə elə sevirəm ki…***
***Küçələrin uşaqlarını, yalqız qocalarını,***
***ağacların damarlarını, quşların dodaqlarını,***
***şəhərlərin, kəndlərin, yaxınların, uzaqların***
***qanadlarını***
***küçələrin şüalarını, gözlərin dualarını,***
***qürbətin doğmalarını, doğmaların yadlarını,***
***bütün gözəlliklərin adlarını, dadlarını***
***nakamların həyatlarını.***
***sevəndə elə sevirəm ki…***
***sevgi canımdan keçir…***

Xanım İsmayılqızının şeirlərini düşüncədən qopub hisslərə qovuşan və hər ikisinin bir vəhdət halında təzahürü kimi qiymətləndirmək olar. V.Q.Belinski deyirdi ki, şeir insan bədəni kimi canlı bir varlıqdır, daxildən gələn vəhydir, qəlbin – ideyanın təcəssümü və təzahürüdür. Bizim bir

çox şairlərimizdə məhz canlı varlığın, daxildən gələn vəhyin yaratdığı şeirlər daha çox maraq doğurur. Xanım İsmayılqızının şeirləri içərisində də belə nümunələrlə qarşılaşırıq. Öncə onun sevgi ilə bağlı bir şeirindən misal gətirdik. Sevginin dəqiq tərifi varmı? Nizamidə, Füzulidə, Nəsimidə, Caviddə, Səməd Vurğunda, Müşfiqdə, Rəsul Rzada, Bəxtiyar Vahabzadədə, Əli Kərimdə, Məmməd Arazda, Vaqif Səmədoğluda, Ramiz Rövşəndə sevgi, həmçinin eşq, məhəbbət insana, varlığa məxsus müqəddəs bir hiss, ali bir duyğu kimi öz ifadəsini tapıb. Təbii ki, bütün bunların hər biri Azərbaycan poeziyasında sevgi fəlsəfəsinin ayrı-ayrı cüzvləridir. Xanım İsmayılqızı da yaşanılan, duyulan, insanı bu ali hissə tapındıran sevgini bu günün poetik lisanıyla tərənnüm edir:

***Göz qırpımında gəlib ürəkdə yurd salanın,***
***Səni yerdən qoparıb özü səndə olanın,***
***Saatda, dəqiqədə, saniyədə qalanın***
***Adı – Sevgidi.***

***Bütün rənglər birləşib bir rəngdən keçilirsə,***
***Qaranlığın içində bir cüt göz seçilirsə,***
***Ovucun içi qədər bir dünya içilirsə,***
***Dadı – Sevgidi.***

***Ruhuna işıq salan ələgəlməz çırağın,***
***Nur selinə bürünən o sehrli otağın,***
***Həyatına, ömrünə sakin olan qonağın***
***Odu – Sevgidi.***

Xanım İsmayılqızının şeirlərini birmənalı şəkildə hansısa bir tipologiyaya aid etmək istəmirəm. Ancaq bu şeirlərin əksəriyyəti düşüncədən yoğrulan, hisslər və duyğularla incələşən bir çevrəyə aid oluna bilər. Əslində, bu vəhdət elə həqiqi şeirin əlifbasıdır. Öndə fikir… amma quru, ehtirasdan, şövqdən qətiyyən uzaqlaşmayan fikir. Təbii ki, şeirin gözəlliyini təşkil edən təzə və orijinal bədii təsvir vasitələrinin şeirlərə hopması ilə. Məsələ burasındadır ki, Xanım İsmayılqızı hər şeirində təzə bir fikir söyləməyə inadlıdır və onun bu inadı bəzi şeirlərində uğurlu alınır. Mənə daha çox onun 2016-cı ildə qələmə aldığı şeirlər xoş gəldi. Subyektiv fikrimdir: elə bil 2016-cı il Xanım İsmayılqızının şairlik istedadını mütləq şəkildə açıb ortaya qoyur. Özü də, həmin ildə yazdığı şeirlərin bir-ikisi istisna olmaqla, hamısı heca vəznindədir və əksəriyyəti də qoşmadır. Strukturu məlum, forması, qafiyə və ya rədif üsulu məlum, ancaq Azərbaycan şeirinin bu qədim havasında təzə nəsə demək, təzə notlar səsləndirmək və ən əsası, XXI əsrin qoşmasını yaratmaq bədii təfəkkürün yenilik missiyasını aşkarlayır.

***Göz ilə görünməz çəkən, çəkilən,***
***Açıq yaralar var duzun içində.***
***Dağlar da gizlənir sinə altında,***
***Ürək də dayanmır buzun içində.***

***Gecələr gündüzə elçi göndərib,***
***Buludlar yağışı dilçi göndərib,***
***Ömür yorulmağa yolçu göndərib,***
***Həyatdı fırlanır yüzün içində.***

Bir qədər bədii desəm, Xanım İsmayılqızı həm də musiqili bir obrazdır- bəstəçidir, nəğməkar şairdir, əksərən öz şeirlərinə özü musiqi yazır. Ruh və Can bir-birilə necə ünsiyyət qurursa, şeirlə musiqi də eləcə… («O zaman deyəsən vaxt qovuşanda Şeirlə musiqi bir ucalırdı» – Əli Kərim). Onun şeirlərinə Polad Bülbüloğlu, Emin Sabitoğlu, Faiq Sücəddinov, Aygün Səmədzadə, Novruz Aslan, Eldar Mansurov, Vüqar Camalzadə, Səyavuş Kərimi, Eldar Həsənov, Çingiz Əlizadə, Cabbar Musayev, Nadir Əzimov, Elçin İmanov və ən çox da özü musiqi bəstələmişlər. Elə mahnıların adından bilinir ki, Xanım İsmayılqızı bu sahədə professionallaşıb, çünki hər hansı mahnının nəqərat hissəsində səslənən misra və deyim şeirdəki şah beyt kimi səslənməlidir. Baxın: «Bilmirəm, ayrılıq beləmi olur?» «Bircə sən yoxsan yanımda», «Mən inanmaq istəyirəm», «Xatirələr oyananda», «Sən məni unuda bilməzsən artıq», «Məni bir anlıq unutsan» və s. Bu mahnıların mövzuları da müxtəlifliyilə seçilir, təkcə sevgiyə aid deyil, Allaha məhəbbət, təbiətlə bağlı düşüncələr, vətənpərvərlik haqqında da mahnılar yazılıb. İndiki müğənnilərin çox vaxt oxuduqları mahnıların əndrabadi sözlərini özləri yazdıqları, həmçinin bəzi şairlərin də bu dəstədən geri qalmadıqları bir dövrdə Xanım İsmayılqızının mahnılara qoşduğu şeirlərin əksəriyyəti öz bədii sanbalı ilə seçlir. Bəstəkar Nadir Əzimov Xanım İsmayılqızının «Darıxdım» şeirinə mahnı yazıb, baxın:

***Yağış da yağır hələ,***
***bu sənsiz küçələrə.***
***Dözürəm bilə-bilə***
***Sənsiz açan səhərə.***

***Yarpaqlar pıçıldayır***
***Küləyin nəfəsindən.***
***Ürəyim sızıldayır***
***Bu gecənin səsindən.***

***Yadıma düşür yenə***
***Bizim son görüşümüz.***
***Sevirəm – dedim sənə,***
***Şəhid oldu gecəmiz.***

Tənhalıqdan doğan darıxmağı ancaq belə, əsl şeir kimi ifadə etmək olardı. Afaq Məsud Xanımın şeirlərini məhz «darıxmaq» kontekstində şərh edir və məncə, haqlıdır. Elə darıxmağın özü də şeirdir…

Xanım İsmayılqızının şeirləri haqqında söhbətim bitmədi, amma ruhu da incitmək olmaz…